NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, № 1 (127)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 1 (127)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, № 1 (127)

# PEDAQOGİKA, PSİXOLOGİYA VƏ METODİKA

**SOLMAZ BAYRAMOVA**
**SEVİNC ORUCOVA**
*slmzbrm@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*

**DOI: 10.30546/155244.2024.2.127.026**

## ŞAGİRDLƏRİN TƏLİMDƏ GERİDƏ QALMASININ SOSİAL-PSİXOLOJİ SƏBƏBLƏRİ

*Məqalədə gənc nəslin tərbiyəsində, onların şəxsiyyət kimi formalaşmasında təlim fəaliyyətinin rolu və əhəmiyyəti açıqlanır. Təlim prosesinin necə təşkili və qurulmasından asılı olaraq şagirdlərin müvəffəqiyyətlə oxuduqlarından və öyrənməyə qabilliyin müxtəlifliyindən bəhs olunur. Eyni zamanda, şagirdlərin bilikləri və təlim fəaliyyəti tərzlərini nə dərəcədə mənimsəmələri göstərilir. Bununla yanaşı olaraq, bəzi şagirdlərin təlim materialını yaxşı qavramamasından, öyrənməkdə çətinlik çəkmələrindən və nəticədə təlim fəaliyyətində öz yoldaşlarından geri qalmalarından bəhs olunur. Həmçinin şagirdlərin təlim fəaliyyətində sinif yoldaşlarından geridə qalaraq müvəffəqiyyət qazana bilməmələrinin səbəbləri xüsusilə vurğulanır. Bu səbəblər sosial və psixoloji səbəblər olduğu qeyd olunur.*

*Məqalədə təlimdə geridə qalan şagirdlərin düzgün şəkildə inkişaf etdirilməsi yolları və vasitələri açıqlanmışdır. Həmçinin geridə qalan şagirdlərlə dərs aparan müəllimlərin qarşısında duran vəzifələrdən bəhs edilmiş və təlimdə geridə qalan şagirdlərlə səmərəli pedaqoji tədbirlər keçirməyin əhəmiyyəti vurğulanmışdır.*

***Açar sözlər:*** *şagird, müəllim, təlim, təhsil, sosial-psixoloji səbəblər*

Uşaqları sevməklə yetinməməliyik, dövlətimizin və millətimizin gələcəyi baxımından öyrənməyi və hərtərəfli şəkildə inkişaf edən bir şəxsiyyət kimi yetişdirməyi bir vəzifə hesab etməliyik.

Hər bir uşaq başlı-başına bir dünyadır. İlk aylarda və illərdə uşaqlar arasında oxşarlıqlar çox olsa da, zaman keçsə də, uşaq şəxsiyyətindəki fərqliliklər özünü qabarıq göstərməyə başlayır.

Məlumdur ki, gənc nəslin tərbiyəsində, onların bir şəxsiyyət kimi formalaşmasında təlim fəaliyyətinin rolu yüksəkdir. Təlim mürəkkəb bir proses olmaqla yanaşı, məqsədəyönəlmiş bir prosesdir. Bu proses, eyni zamanda ümumi məqsədə - məktəbliləri müəyyən bilik, bacarıq və vərdişlərə yiyələnməyə xidmət edir.

Təlim fəaliyyətinə bəslənən maraqlı və laqeyd münasibət ilk növbədə təlim prosesinin və onun ayrı-ayrı ünsürlərinin hansı şəkildə olmasından, daha dəqiq ifadə etsək, təlim fəaliyyətinin necə təşkili və qurulmasından asılıdır. Bəzən təlim prosesi düzgün təşkil olunsa da, şagirdlərin müxtəlif müvəffəqiyyətlə oxuduqlarının, öyrənmə qabilliyinin müxtəlifliyinin şahidi oluruq. Bu özünü bəzi şagirdlərin bilikləri və təlim fəaliyyəti tərzlərini nə dərəcədə mənimsəmələrində göstərir. Belə ki, şagirdlərin bir qismi təlim materiallarını yaxşı başa düşür, yaxşı yadda saxlayır və gec unudurlar. Həmçinin, onların hafizəsi yaxşı inkişaf edir, hər hansı mövzu ilə bağlı müstəqil fikir yürütməyi bacarır, sərbəst və məntiqi mühakimə ilə öz fikirlərini ifadə edirlər.

Bununla yanaşı olaraq, bəzi şagirdlər təlim materiallarını yaxşı qavramır, yaxşı başa düşmür, öyrənməkdə çətinlik çəkir və eyni zamanda öyrəndiklərini tez yaddan çıxarırlar. Nəticədə isə belə

şagirdlər təlim fəaliyyətində öz yoldaşlarından geridə qalır, müvəffəqiyyət qazana bilmirlər. Geridə qalan şagirdlər üzərində iş aparan və xüsusi eksperimental şəraitdə onların təfəkkürünü tədqiq edən psixoloqlar belə bir nəticəyə gəlmişlər ki, bu cür şagirdlər deduktiv əqli nəticə apara bilmir, eyni zamanda əsas əlamətləri, xüsusilə bir neçə belə əlamət olduqda onları ayırmaq və onların əsasında ümumiləşdirmə aparmaqda çətinlik çəkirlər.

Şagirdlərin təlim fəaliyyətində öz sinif yoldaşlarından geridə qalaraq müvəffəqiyyət qazana bilməmələrinin səbəbləri üzərində araşdırma aparan mütəxəssislər müxtəlif fikirlər irəli sürərək belə qənaətə gəlmişlər ki, bu səbəblərə şagirdlərin məişət şəraitlərinin olmaması, müəllimin şagirdlərlə düzgün olmayan davranış qaydaları və bundan yaranan düzgün olmayan münasibət, həmçinin müəllimin iş üsullarındakı nöqsanlar, irsiyyətdə və fiziki qüsurlardan doğan çatışmamazlıqlar və s. daxil edilir.

Təlim prosesində geridə qalma halları və təlimi yerinə yetirməmək son dərəcə mürəkkəb hadisədir. Sosial səbəblərlə yanaşı, psixoloji səbəbləri öyrənmədən təlimdə geriqalma hallarının mahiyyətinə düzgün nüfuz etmək olmaz.

Şagirdlərin hər biri özünəməxsus idrak imkanlarına, hissi emosional sabitliyə, iradəyə, xarakterə, qabiliyyətlərə malikdir və eyni zamanda onların hər biri fərdi yanaşma tələb edir.

Çox zaman pedaqoji fəaliyyət zamanı müəllimlərin buna imkanı çatmır və ya verdiyi məsləhətlər, apardıqları işlər səmərəsiz qalır. Bildiyimiz kimi məktəbdə təlimin səmərəsiz keyfiyyəti hər bir müəllim qarşısında duran əsas və həlledici vəzifələrdən biridir.

Şagirdlərin müvəffəqiyyətlə oxuması motivlərdən çox asılıdır. Şagirdlərdə motivlərin zəif inkişaf etməsi onların təlimdə geridə qalmalarına səbəb olur.

Məktəblilərdə motivlər müxtəlif şəkildə özünü göstərir. Müşahidələr əsasında müəyyən edilmişdir ki, zəif oxuyan şagirdlərin müəyyən qismini səhv olaraq əqli cəhətdən geridə qalmış hesab edirlər. Belə şagirdlər təlim materiallarını anlamağa, onun haqqında müstəqil düşünməyə cəhd göstərməyərək mexaniki əzbərləməyə meyilli olurlar.

Bununla yanaşı olaraq, geridə qalan şagirdlər təhlil aparmaqda çətinlik çəkir, mücərrədləşdirmə və ümumiləşdirmə səviyyələri problemin məhsuldar və düzgün şəkildə həlli üçün lazım olan səviyyədən çox aşağı olur.

Təlimdə geridə qalan şagirdlərin müəyyən hissəsində düzgün vərdiş və adətlər yaranmadığı müşahidə olunur. Çox vaxt belə şagirdlər haqqında "oxumağı bacarmırlar" fikri formalaşır. Belə şagirdlər dərs öyrənmə tərz və üsullarından düzgün istifadə etmirlər. Çox zaman zəhməti çox olan tərzlərdən istifadə etdikləri üçün səmərəsi də az olur.

Təlimi yerinə yetirməyən, bu gün şagirdlərin sözlü məntiqi, təfəkkürünün inkişafı, əyani əməli təfəkkürdən geridə qaldığından şagirdlər qaydanın izahını və mahiyyətini başa düşmür, yaxud da qayda haqqında formal biliklər məsələnin düzgün həllinə gətirib çıxarmır.

Tədris prosesində nöqsanlardan biri də müxtəlif şəkildə olan çalışmaların hansı qaydada istifadə edərək icra etməsinə aiddir. Bəzən şagirdlər yazı yazarkən, məsələ həll edərkən, şəkil çəkərkən müxtəlif səhvlər edirlər ki, bunları da şagirdlərin diqqətsizliyi ilə izah edirlər.

Dərsdə geri qalmanın səbəblərindən biri də ümumiyyətlə, tədris işini düzgün təşkil etməyi bacarmamaqdan irəli gəlir. Bəzi hallarda şagird tədris rejiminə düzgün riayət etməyərək dərsi fasilə vermədən hazırlamağa başlayır. Dərslə fasiləsiz məşğul olmaq, eyni zamanda arada çox və ya tez-tez fasilə vermə də işin səmərəsinə təsir göstərmiş olur. Geridə qalan şagirdlərin içərisində elələri var ki, müstəqil iş icra edərkən uzun vaxt sərf etdiyindən, bir işdən digərinə keçməkdə çətinlik çəkir və ya keçə bilmir. Bu da şagirdlərin əməyə, eyni zamanda təlim əməyinə düzgün olmayan münasibət bəsləmələrindən irəli gələn bir prosesdir. Məhz buna görə də, şagirdləri qarşılaşdıqları çətinliyə qarşı maneələri aradan qaldırmaq uğrunda mübariz tərbiyə etmək lazımdır və zəruridir. Əks halda isə şagirdlər qarşılaşdıqları hər hansı bir çətinliklərdən qorxar və onlarda əməyə düzgün olmayan münasibət formalaşmış olar. Nəticədə isə belə şagirdlərdə əməyə qarşı sevgi hissi olmur, dərslərinə ciddi yanaşmır, verilən ev tapşırıqlarını icra etmədən məktəbə gəlməyi normal hesab edirlər. Belə

şagirdlərdə əməksevərlik tərbiyə olunması vacibdir. Bunun üçün onları məktəbin ictimai işlərinə cəlb etmək lazımdır ki, onlarda əməyə qarşı sevgi hissi yaransın.

İdrak proseslərinin düzgün inkişafı şagirdlərin müvəffəqiyyətlə oxumaları üçün olduqca böyük əhəmiyyət kəsb edir. Təlimdə geridə qalan şagirdlərdə təfəkkürün inkişafı fərqli cəhətlərdə özünü göstərir, belə ki, şagirdlərin sözlü məntiqi təfəkkürünün inkişafı əyani əməli təfəkkürünün inkişafından geri qalır. Ona görə də, belə şagirdlər verilmiş qaydaların izahını başa düşmür, ya da qaydalar haqqında formal biliklərə malik olurlar ki, bu da məsələnin düzgün həllinə gətirib çıxarmır. Dərsdə istifadə olunan əyani material onlardan bəzilərinə nəinki kömək etmir, həmin materialdakı ikinci dərəcəli olan əlamətlər şagirdlərin diqqətlərinin yayınmasına səbəb olur.

Təfəkkür prosesinin qeyd olunan cəhətləri, şagirdlərin digər psixi proseslərinin, xüsusilə hafizənin və diqqətin xüsusiyyətlərinə də özünəməxsus şəkildə təsir edir. Baxmayaraq ki, həmin şagirdlərdə hafizənin və diqqətin xüsusiyyətlərini yerinə yetirən şagirdlərin diqqət və hafizəsinin xüsusiyyətlərindən əsaslı şəkildə fərqlənmir. Ona görə də, çox vaxt geridə qalan şagirdlər ayrı-ayrı elementləri, sözləri və rəqəmləri yaxşı yadda saxladıqları halda, mənalı və məzmunlu materialı yadda saxlayarkən onun əsas əlamətlərini və cəhətlərini buraxır, yada salmaqda çətinlik çəkir, yada sala bilmirlər.

Geridə qalan şagirdlərdə psixi proseslərin qeyd olunan xüsusiyyətləri, eyni zamanda onlarda özünütəşkilin zəifliyi, diqqətlərini ixtiyari olaraq idarə edə bilməmələri ilə əlaqədardır.

Bu cür şagirdlər çox zaman əqli əməkdən qaçmağa cəhd göstərir, onları fikirləşməkdən azad edəcək qeyri-müəyyən yollar axtarmağa çalışırlar.

Belə şagirdlərdə idrakın formalaşdırılması və tərbiyə edilməsi olduqca vacibdir. Çünki idrak maraqlarının şagirdlərin müvəffəqiyyətlə oxumaları üçün böyük əhəmiyyəti vardır. Bu marağa şagirdlərin malik olması onların müvəffəqiyyətlə oxumalarına böyük təkan verir. Bu marağa malik olan şagirdlər üçün təlim prosesi cəlbedici və asan olur.

Belə marağın olmaması şagirdi dərsi oxumaqdan və öyrənməkdən uzaqlaşdırır, dərslərə səthi yanaşır, bu da şagirdin geri qalmasına səbəb vermiş olur. Ümumiyyətlə tədris olunmuş fənlərə maraqlar şagirdləri həmin fənləri daha dərindən öyrənməyə və dərk etməyə yönəldir.

Buna görə də, geridə qalan şagirdlərdə maraqları inkişaf etdirmək vacibdir. Şagirdlərdə maraqların yaranması isə müəllimin dərsi necə tədris etməsindən, pedaqoji ustalığından və məharətindən, dərsin düzgün təşkilindən, lazımi əyani vəsaitlərdən istifadə etməyin, tədrislə bağlı yeni kitabları mütaliə etməyin və s. böyük təsiri, əhəmiyyəti vardır.

Öyrənməyə qabilliyi zəif olan şagirdlər səmərəli pedaqoji tədbirlər görmədikdə sinif yoldaşlarından getdikcə daha da geridə qalmağa başlayırlar. Tədricən belə şagirdlərə sinif yoldaşları tərəfindən müəyyən münasibət yaranır, müəllimin həmin şagirdlər haqqında stereotip fikri formalaşır, ən başlıcası isə belə şagirdlər özləri özlərinə, öz güclərinə, bilik səviyyələrinə, hətta ən asan və gücləri çatan məsələlərin həllinə, imkanlarının olmasına inanmırlar, bir sözlə, özlərini həddindən artıq qeyri-real aşağı qiymətləndirməyə başlayırlar. Psixoloji tədqiqatlar təlimdə geridə qalan şagirdlərin bir sıra tiplərini müəyyənləşdirməyə imkan vermişdir. Belə şagirdlərdən bir qrupu özlərinin öyrənməyə qabilliyinin aşağı səviyyəsi ilə, lakin təlimə qarşı müsbət münasibətləri ilə xarakterizə olunurlar.

İkinci tip geridə qalan şagirdlər fikri fəaliyyətlərinin yüksək keyfiyyətləri ilə, bununla yanaşı təlimə qarşı mənfi münasibətləri və məktəbli mövqelərinin qismən və ya tamamilə itirilmələri ilə fərqlənirlər (1, s.90).

Geridə qalan şagirdlərin müəyyən bir qismi təlim işindəki hər cür çətinlikdən qaçmağa çalışırlar. Belə şagirdlər təlimdə uğur qazanmaq üçün çox vaxt qadağan olunmuş yollardan istifadə etməyə çalışırlar, yoldaşlarından köçürür, onların gizlincə dediklərinə istinad edirlər.

Çox zaman bu cür şagirdlər başqa işlərinə də təlimə yanaşdıqları kimi yanaşırlar. Ətraf gerçəklik haqqında onların təsəvvürləri olduqca məhdud olur, hətta təlim tapşırıqlarının mahiyyətini anlamağa cəhd göstərmirlər. Bir qayda olaraq onlar gələcəkləri barədə heç nə düşünmürlər.

İkinci tipə aid olan, geridə qalan şagirdlər, adətən məktəbdə yaxşı oxumaq istəyi və marağı ilə gəlsələr də, evdə səbirlə oturub dərslərini öyrənməyə alışdırılmamış olurlar. Belə şagirdlərdə yalnız

xoşlarına gələn işlə məşgul olmaq adəti özünü göstərir, ona görə də diqqəti cəmləşdirmək, hafizəni gərginləşdirmək və fəal şəkildə fikirləşmək onlarda narazılıq yaradır. Nəticədə isə təlimdə yaranan uğursuzluq mənəvi gərginliyin yaranmasına gətirib çıxarır. Bu da istər-istəməz təlimə qarşı mənfi münasibət yaratdığından onların gələcək planları təlimlə bağlı olmur.

Təlimdə geridə qalan şagirdlərlə işin təşkili günümüzün vacib tələblərindəndir. Geridə qalma, təlimdə müvəffəqiyyətsizliyin səbəblərinin təhlili müəllim üçün, şübhəsiz böyük əhəmiyyətə malikdir. Çünki bu zaman məktəbdə özünə yer edən bu problemin qarşısını almaq və aradan qaldırmaq imkanı yaranır. Hələ də psixoloji tədqiqatlar bu problemin qarşısını almağın tam səmərəli yollarını aşkara çıxara bilməsələr də, bu sahədə aparılan ayrı-ayrı tədqiqatlara istinad edərək təlimdə geridə qalmanın aradan qaldırılmasına kömək edə biləcək bəzi yolları nəzərdən keçirmək zəruridir.

Təlimdə geridə qalan şagirdlərlə işin sistemli təşkili müəllimdən şagirdin şəxsiyyətinə, mənəvi-psixoloji və ailə vəziyyətinə yaxından bələd olmasını tələb edir. Müəllimin bu istiqamətdə tətbiq etdiyi iş prinsipinin və şagirdlərlə pedaqoji-psixoloji yanaşmanın xüsusiyyətlərinin həlledici rolu böyükdür.

Hər bir müəllim dərs prosesində maraqlı faktları əks etdirən sənədli filmlərə baxış təşkil etməli, təlimdə geridə qalan şagirdləri mütəmadi olaraq sinifdənkənar tədbirlərə cəlb etməli, onlara həmin tədbirlərə məsul vəzifələri həvalə etməlidir. Eyni zamanda onların psixoloji gərginliklərini aradan qaldırmaq üçün maraqlı situasiyaların yaradılması, valideynləri ilə sistemli olaraq maarifləndirici görüşlərin və tədbirlərin təşkil olunması, onların ailə vəziyyətini öyrənib lazımi pedaqoji-psixoloji dəstəyin verilməsi vacibdir.

Təlimdə geridə qalan şagirdlərin asudə vaxtlarının səmərəli təşkili şagirdlərin təlimə marağının təmin olunmasında təlimə geriliyin aradan qaldırılmasında əhəmiyyətli rol oynayan amillərdən biridir (2, s.4).

Müasir informasiya-kommunikasiya dövründə şagirdlər asudə vaxtlarını daha çox telefonlarla, kompüterlə keçirməyə, şəbəkə oyunlarından istifadə etməyə üstünlük verdiklərindən onların əksəriyyəti intellektual inkişafdan geri qalmış olurlar. Buna görə də, müəllimlər şagirdləri sistemli mütaliəyə cəlb etməklə onların asudə vaxtlarının səmərəli keçməsinə - həm intellektual inkişafına, həm də təlimə maraqlarının təmin olunmasına imkan yaratmış olarlar.

Mütaliənin səmərəliliyini, onun təlimin keyfiyyətinə təsirini daha da artırmaq üçün mükəmməl əsərlərin oxunmasına üstünlük verilməli, əsərlər təhlil olunmalıdır. Təhlil zamanı şagirdlərin oxuduqları əsərləri sosial və mənəvi istiqamətdə araşdırmalarına, əsərlərin sosial-psixoloji mahiyyətini meydana qoymalarına imkan yaradılmalıdır.

Şagirdlər daha çox oxuduqca, mütaliə etdikcə intellekt səviyyələri yüksəlir, hadisələrə qarşı münasibəti formalaşır, münasib olmayan, zərərli adətlərə yönəlmir, dərslərinə diqqət ayırmağa daha çox vaxt əldə edirlər. Nəticə olaraq, təlimdə geri qalan şagirdlər fikir mübadiləsi aparmaq üçün müzakirələrə ciddi şəkildə hazırlaşır və fikirlərini maraqlı ifadə etməyi bacarırlar.

Bu kimi tədbirlər, ekskursiyalar, "dəyirmi masa"lar, ədəbi-bədii kompozisiyalar, bütün sinfi əhatə etməklə, nəticə etibarilə şagirdlərin təlim qabiliyyətinin aradan qaldırılmasına yol açır. Qeyd olunanları məharətlə həyata keçirməyə isə müəllimin yaradıcı fəaliyyəti, yenilikləri tətbiqetmə ustalığı, qabaqcıl təcrübələrdən bəhrələnmə bacarığı, innovativliyi, yenilikləri öyrənməyə marağı imkan verir. Nəticə olaraq, təlimin keyfiyyəti yüksəlir.

Təlimin keyfiyyətinin yüksəldilməsi, müasirləşməsi fonunda təlimdə geri qalan şagirdlər də verilən tapşırıqları mənimsəyir, gerilik müəyyən mənada aradan qalxır, sinif ən yaxşı şagirdlərin təhsil aldığı nümunəvi və qabaqcıl sinifə çevrilmiş olur.

Müşahidələr və təcrübələr göstərir ki, neçə-neçə şagirdlər tətbiq edilən yanaşmalar sayəsində təlim geriliyini aradan qaldırmış və ən yaxşı şagirdlər sırasına qoşulmuşlar. Məhz buna görə də səbirlə, təmkinlə pedaqoji yanaşmaları zamanında elmi aspektdə tətbiq etməklə, istənilən nəticə əldə etmək və uğur qazanmaq mümkündür.

## ƏDƏBİYYAT

1. Həmzəyev M.Ə. Pedaqoji psixologiya. Bakı: 1991. (90)
2. Cəfərov O. Təlimdə geri qalan şagirdlərlə işin təşkili. "Azərbaycan müəllimi" qəzeti. 14 iyul 2018
3. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı: 2008
4. Əmrahlı L.S., Rzayeva M.T. Uşaq psixologiyası. Bakı: 2015

## SUMMARY

**Solmaz Bayramova, Sevindj Orujova**

### SOCIO-PSYCHOLOGICAL REASONS FOR ACADEMIC FAILURE OF STUDENTS

This article describes the role and significance of educational activities in the development and formation of the personality of the younger generation. The success of learning and the diversity of learning abilities depend on how the educational process is organized and structured. It shows the degree to which students have mastered knowledge and methods of learning activities. At the same time, it is noted that some students do not understand the educational material well, experience difficulties in learning and, as a result, lag behind their classmates in educational activities. The reasons why students lag behind their classmates and do not achieve success in educational activities are also especially emphasized. Both social and psychological reasons are called such reasons.

This work identifies ways and means of providing assistance to students who are lagging behind in their studies for their adequate development. It also discusses the challenges faced by teachers teaching struggling students and emphasizes the importance of effective educational interventions for struggling students.

***Key words:*** *student, teacher, training, education, social and psychological reasons*

## РЕЗЮМЕ

**Солмаз Байрамова, Севиндж Оруджова**

### СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ПРИЧИНЫ АКАДЕМИЧЕСКОЙ НЕУСПЕВАЕМОСТИ УЧАЩИХСЯ

В данной статье описывается роль и значение образовательной деятельности в развитии и формировании личности подрастающего поколения. От того, как организован и структурирован образовательный процесс, зависит успешность обучения и разнообразие учебных способностей. Он показывает степень овладения учащимися знаниями и способами учебной деятельности. В то же время отмечается, что некоторые ученики плохо понимают учебный материал, испытывают трудности в обучении и, как следствие, отстают от своих одноклассников в учебной деятельности. Также особо подчеркнуты причины, по которым ученики отстают от своих одноклассников и не добиваются успехов в учебной деятельности. В качестве таких причин называются как социальные так и психологические причины.

В данной работе определены пути и способы оказания помощи отстающим в учебе ученикам для их адекватного развития. Также обсуждаются проблемы, с которыми сталкиваются учителя, обучающие отстающих учеников, и подчеркивается важность эффективных образовательных мероприятий для отстающих учеников.

***Ключевые слова:*** *студент, педагог, обучение, воспитание, социально-психологические причины*